**Auditorlar Palatası üzvlərinin fəaliyyətinin**
**Auditorun şəxsi kabineti sistemində monitorinqinin nəticələrinə dair**
**Arayış**

Auditorlar Palatasının 2024-cü il üzrə İş planının 8.4-cü "Palata üzvlərinin fəaliyyətinin auditorun şəxsi kabineti sistemində monitorinqinin aparılması" bəndi ilə əlaqədar bildirirəm ki, 2024-cü il ərzində Palata üzvlərinin fəaliyyətinin auditorun şəxsi kabineti sistemində monitorinqi aparılmışdır. Monitorinqin əsas məqsədi Palata üzvlərinin qanunvericiliyə və peşə standartlarına uyğun fəaliyyət göstərməsini təmin etməkdən ibarətdir.

Monitorinq aşağıdakı əsas mərhələlər üzrə aparılmışdır:

**1. Məlumatların Toplanması:**

- Palata üzvlərinin daxil etdikləri müqavilələr analiz olunmuşdur.
- Sistemə yüklənmiş sənədlərin tamlığı və düzgünlüyü yoxlanılmışdır.

**2. Analitik Təhlil:**

- Auditorların fəaliyyət göstəriciləri müqayisəli şəkildə təhlil edilmişdir.

**3. Nəticələrin Qiymətləndirilməsi:**

- Hər bir Palata üzvü üçün fərdi qiymətləndirmə aparılmışdır.

Aparılmış monitorinqin nəticəsinə əsasən 2 auditor təşkilatı "BDO Azərbaycan" MMC və "Davud Mamedov" MMC-nin fəaliyyətləri olmasına baxmayaraq Auditorun şəxsi kabineti sistemində fəaliyyətlərini düzgün əks etdirməmiş və bəzi müqavilələrini daxil etməmişdirlər.

Eyni zamanda, 2024-cü il ərzində yeni fəaliyyətə başlayan 27 auditor təşkilatından 26-sı və 3 sərbəst auditordan 2-nin Auditorun şəxsi kabineti sistemində fəaliyyəti əks olunmuş və müqavilələri yerləşdirilmişdir.

Üç auditor təşkilatının ("KPM Audit and services" MMC, "Invest Audit" MMC, "Alltegrity Group" MMC) və üç sərbəst auditorun (Üzeyir Fətiyev, Rəna Qəfərova, Sabir Novruzov) 2024-cü il ərzində  fəaliyyətləri olmadığı üçün Auditorun şəxsi kabineti sisteminə heç bir müqavilə daxil etməmişdirlər.

Qeyd etmək istərdim  ki Auditorun şəxsi kabineti sistemində 226 Palata üzvündən 106-nın bağladığı müqavilə saylarında azalma, 90-da isə artma müşahidə olunmuşdur.

**Təkliflər:**

1. Cari il ərzində göstərdiyi xidmətlərin sayında əhəmiyyətli azalma müşahidə olunan auditorlara müvafiq sorğular edilsin.

2. Auditorun şəxsi kabineti sistemində fəaliyyətlərini düzgün əks etdirməmiş Palata üzvlərində ötən il də eyni pozuntu aşkar edildiyi üçün töhmət elan edilsin.

3. Texniki səbəbdən Auditorun şəxsi kabineti sisteminə müqavilələrin daxil olunmamasının yolverilməzliyi auditorların nəzərinə çatdırılsın və belə hal təkrar olunarsa barələrində ciddi tənbeh tədbiri görüləcəyi onların diqqətinə çatdırılsın.

**Hörmətlə,**

**Şöbə müdiri** **Zaur Almazov**